# İbtidai məktəbdə şagirdlərdə leksik bacarıqların formalaşdırılması yolları

**Maya Rəhim qızı Qasımova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** maya0866@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.Ş. Paşayeva,
p.ü.f.d., dos. F.A. Səfərəliyeva

**Açar sözlər:** ibtidai məktəb, ibtidai sinif şagirdləri, leksik bilik və bacarıqlar, sözün leksik-semantik xüsusiyyətləri, leksik çalışmalar

**Ключевые слова:** начальная школа, ученики начальных классов, лексические знания и навыки, лексико-семантические свойства слова, лексические упражнения

**Key vords:** primary school, primary school students, lexical knowledge and skills, lexical and semantic properties of the word, lexical exercises

Müasir təhsil sistemi koqnitiv xarakteri ilə uşaqların hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Elmi-texniki tərəqqi ibtidai siniflərdən başlayaraq uşaqların intellektual inkişafının qayğısına qalmağı, onlarda yaradıcılıq, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərin tərbiyə olunmasını tələb edir. Azərbaycanın müstəqillik əldə etdiyi müasir dövrdə ölkəmizi dünyanın istənilən nöqtəsində layiqincə təmsil etməyə qadir, mənəviyyatca zəngin, öz kökünə, tarixinə, xalqına, xalqının yaratdığı mənəvi dəyərlərə bağlı, fikir və düşüncələrini yüksək tribunalardan səsləndirməyi bacaran gənclərin formalaşdırılmasına ehtiyac duyulur. Bu səbəbdən ana dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olduğunu dərk edərək, ibtidai siniflərdən başlayaraq ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnməsini təmin etmək qarşıda duran mühüm vəzifələrdəndir. "Orta məktəbi başa vuran gənclər təhsilini davam etdirmək, müxtəlif sahələrdə işləmək üçün müasir dövrün iqtisadi, hüquqi, texnoloji çətinliklərinə hazır olmalı, onların aradan qaldırılmasında təşəbbüskarlıq və fəallıq göstərməlidirlər. Bunun üçün təkcə elmi-nəzəri hazırlıq deyil, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlər, o cümlədən dil və ünsiyyət bacarıqları əldə olunmalıdır" [5,14].

Azərbaycanda təhsil sisteminin kurikulum islahatı zəminində müasirləşdirilməsi təlimə yeni yanaşma tərzinin formalaşmasına səbəb oldu, "təhsil paradiqmalarının dəyişməsi, zəngin innovasiyalar, yeni təlim texnologiyalarının tətbiqi bir tərəfdən biliklər arasında əlaqənin, digər tərəfdən zəruri bacarıqların formalaşmasını ön plana çəkdi" [1,74]. Bu gün ana dilinin tədrisi şagirdlərdə bir sıra nitq, linqvistik və kommunikativ kompetensiyaların formalaşdırılmasını qarşıya məqsəd qoyur. Bu kompetensiyalar şagirdlərdə dilə şüurlu münasibətin tərbiyə olunması və nitq fəaliyyətində fonetik, leksik, morfoloji və sintaktik cəhətdən düzgün nitqin nümayiş etdirilməsini özündə ehtiva edir. Bu mənada dilə yiyələnmə sadəcə nəzəri biliklərlə silahlanma, dil qaydalarının əzbərlənilməsi ilə deyil, lazımi nitq situasiyasında dilin zənginliklərindən məharətlə istifadə etmə, düzgün cümlə qurma, məqamına görə dəqiq söz seçmə bacarıqları ilə ölçülür.

Söz dilin leksik tərkibini təşkil edən əsas lüğəvi vahidi, məna daşıyıcısı, bizi əhatə edən hadisə (*çovğun, bayram*), əşya (*kitab, qəzet*), hərəkət (*yazmaq, bilmək*), əlamət və keyfiyyət

(*yaşıl, mehriban*) və sairin adı, simvolu, işarəsidir. Bu mənada söz gerçəkliyi əks etdirən, insan beynində yaranan konkret və mücərrəd (*xoşbəxtlik, məhəbbət*) obrazlara uyğun olan dil vahididir. Sözlər fikir və düşüncələrin aydın və dəqiq ifadəsində əsas rol oynadığı üçün nitqin keyfiyyəti lüğət ehtiyatının zənginliyi ilə müəyyənləşir. "Bir çox hallarda şagirdlərin nitq mədəniyyəti onların dilimizin leksik zənginliklərinə necə yiyələnmələrindən, şəxsi lüğət ehtiyatının həcmindən və keyfiyyətindən asılı olur. Kifayət qədər söz ehtiyatına malik olan, onun mənasını bilən, sözdən yerli-yerində dəqiq mənada istifadə etməyi bacaran adamın nitqi aydın, cazibədar və təsirli olur... Dilin digər vahidləri ancaq sözün varlığı şəraitində yaranır" [3, 456].

İbtidai məktəbdə şagirdlərdə leksik bacarıqların formalaşdırılması üçün ilk növbədə onların lüğətini kəmiyyət və keyfiyyətcə zənginləşdirmək və həmin sözlərdən nitq prosesində fəal istifadə etmələrini təmin etmək lazımdır. Lüğətin kəmiyyət və keyfiyyətcə zənginləşdirilməsi şagirdlərə bütün məna çalarlarını mənimsətməklə kifayət qədər sözün öyrədilməsini nəzərdə tutursa, lüğətin fəallaşdırılması həmin sözləri cümlə və mətn daxilində həqiqi və məcazi mənada yerli-yerində işlətmək, məqamına görə dəqiq söz seçmək bacarıqlarını özündə ehtiva edir. Bunun üçün Azərbaycan dili dərslərində söz üzərində aparılan işə daha məsuliyyətlə yanaşmaq, işin təşkilində sistemliliyi, mütəmadiliyi təmin etmək lazımdır.

Dilimizdəki sözlər bəzən bir, bəzən bir neçə mənanı ifadə edir. "Buna əsasən dilin leksik-semantik sistemində təkmənalılıq və çoxmənalılıq hadisəsi yaranır" [4, 317]. Sözün çoxmənalılığı onun məcazi mənada işlədilməsi ilə bağlıdır. Məcazi mənada işlənmə sözə əsas mənadan törəyən əlavə məna çalarlığı qazandırır. Bundan əlavə dilimizdə eyni səslənən sözlərin müxtəlif mənalar bildirməsinə (omonimlər), bir-birinə yaxın olan mənaların bir neçə sözlə ifadə olunmasına (sinonimlər), sözlərin bir-birinə əks olan mənada işlədilməsinə (antonimlər), səslənməsinə görə bir-birinə yaxın olub fərqli mənaları ifadə edən sözlərə (paronimlər) və s. rast gəlinir.

Ana dilinə tam yiyələnmələrini təmin etmək məqsədilə bu münasibətlər şagird üçün aydınlaşdırılmalıdır. Belə ki, sözə hakim olmaq onu semantikasını, işlənmə sferasını bilmək deməkdir. Lakin müşahidələr göstərir ki, məktəbdə sözün leksik mənası üzrə müəyyən iş aparılsa da, lüğətin semantik mənalar hesabına zənginləşdirilməsinə lazımi diqqət yetirilmir. İbtidai sinif müəllimləri bu işi həqiqi mənanın ayrılıqda və ya kontekst daxilində izahı ilə başa çatdırırlar. Halbuki hər bir sözün mənasının izahında həmin sözün söz yaradıcılığında rolu və semantik çalarları üzərində iş eyni zamanda aparılmalıdır.

Bəzən leksik məna elə semantik məna ifadəsinə bərabər tutulur. Lakin sözün leksik və semantik mənaları arasında təbii bir yaxınlıq olsa da, onların ifadə etdiyi mənalar eyni tutumda deyil. Semantik məna leksik mənaya tabe olub onun əhatəsində fəaliyyət göstərən incə və dəqiqləşmiş məna çalarıdır. Leksik məna məfhumla bağlı olub onun adını, əlamətini, miqdarını, hərəkətini bildirdiyi halda, semantik məna məfhumun birbaşa deyil, dolayı ifadəçisidir. Məsələn: *göz* sözünün ilkin mənası canlılarda olan görmə orqanının adını bildirməsidir. Leksik məna ilə əlaqəsini dolayı, məcazlaşmış şəkildə saxlayan, leksik mənanın parçalanması hesabına məna incəliklərini (çalarlarını) ifadə edən *stolun, şkafın, bulağın gözü, göz vurmaq, göz ağartmaq, göz qoymaq, gözü böyümək, göz dəymək, göz dağı vermək, gözünün kökü saralmaq, gözdən salmaq, gözdən tük çəkmək, gözdən düşmək* və s. tipli çoxlu ümumişlək semantik mənalar meydana çıxır ki, sözün leksik mənasının açılması prosesində bu frazeoloji birləşmələr üzərində də iş aparılmalıdır. Hətta bir sözdən yeni mənalı leksik vahid düzələndə belə ilkin məna dominant rolu oynayır. Məsələn: *gözlük, gözcük, gözləmək* kimi yeni leksik mənalı sözlər belə ilkin məna ilə əlaqəsini itirmir.

Sözün leksik-semantik xüsusiyyətlərinin mənimsənilməsi ilə bağlı şagirdlərə aşılanması vacib bilinən bacarıqlar ibtidai məktəbin Ana dili üzrə fənn kurikulumunda bütün məzmun xətləri üzrə aparılan işlərin vacib komponenti kimi şaquli inteqrasiyada verilən alt standartlarda ifadəsini tapmışdır. Həmin bacarıqlar: rast gəldiyi yeni əşya və hadisələri adlandırmaq və təyinatına görə müqayisə etmək; yeni sözlərin mənasını sadə formada izah etmək və cümlədə işlətmək; çoxmənalı, yaxınmənalı, əksmənalı sözlərdən və terminlərdən məqamında sərbəst istifadə etmək; çoxmənalı sözləri omonimlərdən fərqləndirmək; fikrini aydın və obrazlı şərh etmək məqsədilə bədii ifadələrdən istifadə etmək; əsas nitq hissələrini leksik mənasına görə fərqləndirmək və s. fəaliyyətləri özündə ehtiva edir [5, 21-28]. Odur ki, şagirdlərdə leksik bacarıqların formalaşdırılması ibtidai məktəbdə dörd il boyunca davamlı şəkildə həyata keçirilməlidir.

İbtidai məktəbdə şagirdlərin leksik bacarıqlarının formalaşdırılması həm keçilən mətnlərin lüğət tərkibi, həm də dil qaydaları ilə bağlı dərslikdə verilmiş çalışmalar vasitəsilə həyata keçirilir. Dərslikdəki mətnlərin sonunda "Sözlük" başlığı altında çətin sözlər (*koğuş, rübənd, yedək, yalman, oğuz, sapand, çaxmaq, əyal, yapıncı, qatran, fitil, mömin, seminariya, imperiya, heybə, kazarma, işğal, pud, xəlifə, darğa, dulusçu, türbə, ovdan, qarğı* və s.) və onların izahı verilir. Lakin göründüyü kimi, izahı verilmiş bu sözlər şagirdlərin lüğət ehtiyatını zənginləşdirməkdən daha çox konkret mətnlərin məzmununun başa düşülməsinə kömək məqsədi daşıyır. Çünki bu sözlərin əksəriyyəti şagirdlərin gündəlik həyatda fəal olaraq istifadə edəcəyi sözlər deyil. Bu səbəbdən şagirdlərin lüğət ehtiyatının kəmiyyət və keyfiyyətcə zənginləşdirilməsi, sözün məna çalarlarına dərindən yiyələnmələrini təmin etmək üçün mətnlər və dil qaydaları ilə bağlı leksik tapşırıqların icrasına geniş yer verilməlidir.

İbtidai sinif dərsliklərində "Söz ehtiyatı" rubrikasında yer almış mətndaxili və mətnsonrası tapşırıqlarda tələb olunan: "verilmiş ifadələrin mənasını izah et", "mətndəki mavi böşluğun yerinə uyğun sözü yaz", "yaxınmənalı ifadələri müəyyən et", "mətndə altından xətt çəkilmiş ifadələri yaxınmnənalı sözlərlə əvəz et", "verilmiş sözlərin əksmənalı qarşılığını tapıb dəftərə yaz", "məcazi mənada işlənmiş sözləri tap", "məcazi mənada verilmiş ifadəni həqiqi mənalı sözlə əvəz et və cümlədə işlət", "verilmiş sözün izahının hansı bənddə düzgün verildiyini müəyyənləşdir", "lüğətdən istifadə edərək verilmiş sözlərin mənasını izah et" və s. fəaliyyət növləri şagirdlərdə sözə həssas münasibət tərbiyə edir və sözün məna çalarları üzərində sərbəst işləmək vərdişləri formalaşdırır [2].

Bundan əlavə, müasir ibtidai sinif dərsliklərində "Dil qaydaları" rubrikası altında şagirdlərə leksikologiyaya dair sadə nəzəri məlumatlar təqdim edilir. Belə ki, II sinifdə - "Söz və onun mənası"; III sinifdə - "Çoxmənalı sözlər", "Sözün məcazi mənası"; IV sinifdə - "Omonimlər", "Terminlər", "Sözün leksik və qrammatik mənası", "Bənzətmə", "Epitet" başlıqları altında bəsit elmi məlumatlar verilir. Sözsüz ki, ibtidai sinif dərsliklərində yer alan sadə dil qaydaları şagirdlərə linqvistik biliklər verməkdən daha çox, onlarda mədəni nitq vərdişlərinin formalaşdırılmasına yardım göstərən vasitə funksiyası daşıyır. Məsələn, ibtidai sinif dərsliklərində frazeoloji birləşmələrə aid nəzəri məlumat verilmir, lakin həmin birləşmələri şagirdlərin lüğətinə daxil etmək və nitq praktikasında onlardan fəal istifadələrinə şərait yaratmaq məqsədilə mətnlərdə çoxsaylı frazeoloji birləşmələrə yer verilir və onların izah edilməsi, ekvivalenti olan sözlə əvəzlənməsi ilə bağlı rəngarəng tapşırıqlar təqdim edilir. Bir sözlə, şagirdlərə leksik biliklərin verilməsinin onların nitqinin inkişaf etdirilməsi, lüğət ehtiyatlarının zənginləşdirilməsi ilə qarşılıqlı əlaqədə həyata keçirilməsinə önəm verilir.

Mətnin təhlili prosesində söz üzərində işi üç mərhələdə təşkil etmək olar:

a) hazırlıq mərhələsi. Bu mərhələdə məqsəd şagirdlərin diqqətini bədii mətndəki lazımi

sözlərə cəlb etmək, şagirdlərin mətndə öyrənilən leksik hadisə ilə bağlı sözləri tapa bilmək, həmin sözləri izah etmək, mətndəki rolunu əsaslandırmaq bacarıqlarını üzə çıxarmaqdır (bu mərhələdə təhlil xarakterli tapşırıqlardan istifadə edilir);

b) reproduktiv mərhələ. Bu mərhələdə məqsəd şagirdlərə öyrənilən leksik məfhumu mənimsəməkdə kömək etmək, mətndə tanış olduqları yeni sözləri onların qeyri-fəal lüğətində möhkəmlətmək və fəal lüğətlərinə keçməsi üçün hazırlığı təmin etməkdir (bu mərhələdə təhlil-tərkib xarakterli tapşırıqlardan istifadə edilir);

c) produktiv mərhələ. Bu mərhələnin məqsədi isə həmin sözləri şagirdlərin fəal lüğətinə daxil etməkdir (bu mərhələdə tərkib xarakterli tapşırıqlar üzərində iş aparılır).

Şagirdlərdə sözün məna çalarlarına həssas münasibətin tərbiyə olunmasında mətnlərin lüğət tərkibi ilə bağlı yerinə yetirilən çalışmaların əhəmiyyəti böyükdür. Belə ki, sözlər "mətn içərisində müəyyən məqamlarla əlaqədar olaraq, müxtəlif məna və məna çalarlığına malik olur və müxtəlif emosional rəngə düşə bilir" [4, 307]. Bu səbəbdən mətnlərdə sözün işlənmə məqamının müşahidə edilməsi, kontekstə uyğun olaraq sözün mənasının dərk edilməsi, bu mənanı təhrif etmədən ifadə edə biləcək yaxınmənalı sözlə əvəz edilməsi və s. kimi fəaliyyətlər şagird üçün əvəzolunmaz təcrübədir. Lakin bəzən mətnlərdə şagirdin lüğətinə artırılması faydalı, gərəkli olacaq sözlər yer almır. Bu baxımdan sözün leksik-semantik xüsusiyyətlərinin mənimsənilməsinə kömək edən xüsusi çalışmaların da əhəmiyyəti qeyd olunmalıdır. Şagirdlərin leksik bacarıqlarının formalaşdırılmasında faydalı ola biləcək bir neçə çalışma nümunəsini nəzərdən keçirək:

1. Mənasına görə sözü tap.

Okean və dənizlərin sahilində gəmilərin durması üçün məntəqə .... (liman)

Müharibədə iştirak etmiş qocaman döyüşçü..... (veteran)

Yeri qazıyan, torpağı, daşı götürüb başqa yerə tökən maşın...... (ekskavator)

Metroda insanların qalxıb-enməsinə kömək edən pilləkən ....(ekskalator)

2. Mötərizədə verilmiş sinonimlərdən cümlənin məzmununa daha uyğununu seç.

1) Ayağımın altında payız yarpaqları sakitçə (xışıldayırdı, xırçıldayırdı). 2) Novruz bayramında uşaqlar qapılara papaq (atdılar, tulladılar). 3) Azərin (böyük, iri, yekə) bacısı uşaq bağçasında tərbiyəçidir. 4) Bu gün dənizin suyu dünənkinə nisbətən (isti, qızmar) idi. 5) Şəkinin (gözəl, göyçək, yaraşıqlı) təbiəti məni valeh etdi.

3. Aşağıdakı cümlələrdə əksmənalı sözlər düzgün seçilmişdirmi? Səhvləri izah et və düzəlt.

1) Kəpənəyin qanadları böyükdür, cırcıramanınkı isə şəffaf *(kiçik).* 2) Çinarın yarpaqları iridir, qarağacınkı isə diş-diş *(xırda).* 3) Palıdın gövdəsi kələ-kötürdür, söyüdünkü isə gözəl *(sığallı).* 4) Səməndər zəhmətkeşdir, Cəlal isə ərköyün *(tənbəl).*

4. Verilmiş sözlərdən müxtəlif mənalı söz birləşmələri qur və cümlədə işlət.

Sözlər: tutmaq *(uşağı tutmaq, əl tutmaq*), çəkmək (*ip çəkmək, dərd çəkmək*), dumanlı *(dumanlı hava, dumanlı fikir*), keçmək (*yolu keçmək, günahından keçmək),* saymaq *(rəqəmləri saymaq, insanı saymaq*), almaq (*kitab almaq, könül almaq).*

5. Aşağıdakı ifadələri uyğun sözlə əvəz edin:

Dil tökmək - ...(*yalvarmaq*), dilini dinc saxlamaq - ...(*susmaq*), üz döndərmək - ...(*küsmək*), bostanına daş atmaq - ... (*söz atmaq*), ürəyi ayağının altına düşmək – (*qorxmaq*), suyu üfürə-üfürə içmək - ...(*ehtiyatlı davranmaq*), milçəkdən fil düzəltmək - ... (*şişirtmək*), səhərin gözü açılmamış - ....(*sübh tezdən*), tamaşasına durmaq - ...(*baxmaq*).

Bu tipli çalışmalar ibtidai sinif müəllimlərinə şagirdləri sözün məna cəhəti ilə maraqlandırmaqda, lüğətlərini zənginləşdirməkdə, şifahi və yazılı nitqdə sözdən şüurlu, düşünülmüş

şəkildə istifadə vərdişləri formalaşdırmaqda kömək edə bilər.

**Məqalənin aktuallığı.** İbtidai məktəbdə Azərbaycan dili təliminin əsas məqsədi şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirməkdir. Söz ehtiyatının zənginliyi isə inkişaf etmiş nitqin vacib göstəricilərindəndir. Bu səbəbdən şagirdlərdə sözün məna cəhətinə, semantik xüsusiyyətlərinə həssas münasibətin tərbiyə olunması yollarının araşdırılması dil təlimində hər zaman aktual məsələlərdəndir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə şagirdlərin dolğun nitq fəaliyyətinin vacib göstəricisi kimi leksik-semantik bacarıqlarının formalaşdırılması yolları araşdırılmış, problemin müasir proqram və dərsliklərdə qoyuluşuna nəzər yetirilmiş, işin səmərəli təşkili üçün çalışma nümunələri təqdim edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ibtidai sinif müəllimlərinə dərslikdəki mətnlərin və leksikologiyaya dair dil qaydalarının öyrədilməsi zamanı şagirdlərin leksik bacarıqlarının formalaşdırılması məqsədilə görüləcək işlərin məzmununu, forma və metodlarını daha da təkmilləşdirmək baxımından praktik istiqamət verə bilər.

## Ədəbiyyat

1. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (I hissə). Bakı, 2016, 403 s.

2. İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili: 3-cü sinif üçün dərslik. Bakı, Altunkitab, 2018, 208 s.

3. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Səda, 2013, 552 s.

4. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı: Elm və təhsil, 2010, 452 s.

5. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, 480 s.

**М.Р. Касумова**

## Способы формирования лексических навыков у учеников начальной школы

### Резюме

Статья посвящена вопросам формирования лексических навыков учащихся в начальных классах. Раскрываются основные понятия, относящиеся к лексической стороне обучения родному языку. Отмечается важность удаления внимания лексическому компоненту как наиболее важной составляющей полноценной речевой деятельности. В связи с проблемой анализируются программные требования, предъявленные в предметном курикулуме по родному языку и современные учебники начальных классов. Также предлагается система упражнений, которыми можно заинтересовать детей значением изучаемых слов и обогатить словарный запас.

**M.R. Gasumova**

## Ways to form lexical skills in elementary school students

## Summary

The article is devoted to the formation of lexical skills of students studying in primary classes. The basic concepts related to the lexical side of teaching the native language are revealed. The importance of paying attention to the lexical component as the most important constituent of full-fledged speech activity is emphasized. In connection with the problem, the program requirements presented in the subject curriculum in the native language and modern primary school textbooks are analyzed. There is also a system of exercises that can interest children in the meaning of the studied words and enrich their vocabulary.

**Redaksiyaya daxil olub:** 30.10.2019